# Azərbaycan hakimiyyətinin Türkiyə milli-azadlıq hərəkatına münasibəti

**Firdovsiyyə Əhmədova**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Tarix" kafedrasının müdiri, t.ü.f.d., dosent*



Azərbaycan siyasi hakimiyyətinin mövcud olmadığı, Rusiya əsarətinin hökm sürdüyü dönəmdə belə Osmanlı dövlətinə, cəmiyyətinə münasibətdə Azərbaycan xalqının isti yanaşması var idi. Azərbaycanın türk-müsəlman əhalisi üçün bu münasibət əsasən mənəvi əhəmiyyət kəsb edirdi, milli – dini zəmindən qaynaqlanırdı. Azərbaycan Cümhuriyyəti yarandıqdan sonra münasibət rəsmi məzmun aldı. Hər iki dövlət arasında sülh və dostluq məzmunlu müqavilə imzalandı. Osmanlı dövlətinin hərbi-siyasi dəstəyi ilə bərqərar olan Azərbaycan Cümhuriyyətinin hakimiyyət dönəminin sonuna yaxın Türkiyə milli-azadlıq hərəkatı başladı. Azərbaycan Cümhuriyyətini de-fakto tanıyan Antanta Osmanlı dövlətini parçalamaq məqsədilə həm diplomatik, həm də hərbi yolla hücuma keçmişdi. Azərbaycanın beynəlxalq səviyyədə tanındığı günlərdə İstanbul ziyalı mühiti bu aktı alqışlayırdı: "Qara Antantanın Azərbaycan istiqlalını təsdiq etməsi düşmən istilası altında yas və matəm içərisində inləyən İstanbul mühitində böyük bir bayram coşqusu yaratmışdı. İstanbul Darülfünunun salonlarında Türkçülüyün ixtiyar şeyxi Yusif Akçura bəyin – "İlk növbədə sizi, ey mütəvazi, fədakar və alicənab Osmanlı qardaşlarımız, sizi bu böyük tarixi hadisə ilə, Türk aləmində birinci dəfə qurulan türk Cümhuriyyəti ilə təbrik edirəm. Sizə, Azərbaycan türkləri, ey

əziz qardaşlarımız, sizə sevgi və sayğı ilə xitab edərək hər millətin həyatında ən böyük səadət olan İstiqlala qovuşmanız münasibəti ilə sizi təbrik edirəm”- deyə, Azərbaycanın ayağa qalxması ilə çox yaxın bir zamanda bütün əsir türk ölkələrinin də xilasını müjdələyirdi.” Bu münasibətləri üzviləşdirən mühüm cəhət kimi Osmanlı ictimai-siyasi fikrinin formalaşmasında Azərbaycan mütəfəkkirlərinin iştirakı sayıla bilər. Əhməd Ağaoğlu, Əli bəy Hüseynzadə, Məhəmmədəmin Rəsulzadə, Nəsib bəy Yusifbəyli və d. ilə başlayan çağdaş ictimai-siyasi əməkdaşlıq çox şaxəli və çox çalarlı məzmun kəsb etmişdir. Birinci dünya savaşı dönəmində daha dərin və geniş əlaqələr yaranmışdı. Qısaca “Qardaş köməyi” ilə səciyyələnə biləcək bu mərhələ Azərbaycan Cümhuriyyətinin elanı ilə rəsmi məzmun aldı. “Qafqaz İslam Ordusu” missiyası ilə Azərbaycan tarixinə zəfər yazan hərbi əməkdaşlığın siyasi istiqamətləri nə qədər önəmli idisə, bu missiyanın mənəvi gücü daha dərin sosial məzmun kəsb etmişdi.



Türkiyə milli-qurtuluş savaşı dönəmində istər milli Cümhuriyyətin, istərsə də sovet Azərbaycanının rəsmi və siyasi-ictimai dairələri maddi və mənəvi dəstəyini əsirgəməmişdir. Türkiyə ilə münasibətlərə dair hökumətin mövqeyini ətraflı şərh edən Nəsib bəyin rəsmi mülahizələri mətbuat vasitəsilə lazımi ünvanlara çatdırılmalı mesaj da sayıla bilər. Türk xalqının milli dirçəlişini arzulayan baş nazir 2 fərqli istiqamətdəki ittihamların əsassız olduğunu açıqlayırdı. Azərbaycan hökuməti bir tərəfdən Türkiyəli siyasi mühacirlərə qonaqpərvərlik, himayəçilik etməkdə günahlandırılır, digər tərəfdən də bolşeviklərlə, türk emissarları ilə iş birliyində ittiham edilirdi. Baş nazir belə xəbərlərin uydurma, təxribat olduğunu söyləyirdi. Bəs həqiqətdə vəziyyət necə idi? Mirzə Bala Məmmədzadə yazırdı: «Moskva Azərbaycandakı türkiyəli zabitlər vasitəsilə Ermənistanla hərblə məşğul olan milli hökuməti yıxacaq, istədiyi hökuməti quracaq və bu hökumətin dəvətilə gəlib Azərbaycana yerləşəcəkdi». «Anadolu heyəti – təmsiliyyəsi» bolşeviklərlə əməkdaşlığa qərar vermişdi. Türk milli-azadlıq savaşına düşmən ingilislərin tələbini, iradını nəzərə alaraq Nəsib bəy mətbuata türk emissarları ilə bağlı söz-söhbətin yalan olduğunu deyirdi. Azərbaycan hökumətini yardım etməməkdə günahlandıran Türkiyə emissarlarını Nəsib bəy imkan düşəndə qəbul edir, məsləhətləşirdi. M.Ə.Rəsulzadə bu barədə yazırdı: «İstanbula səfir göndərildiyi kimi, Anadolu Türkiyəsi ilə də münasibətlər qurmaq və inqilabçı Türkiyəyə maddi yardımlarda bulunmaq üçün hələ 1919-cu ildə xüsusi surətdə təşəbbüslər edilmiş, lakin bu münasibətlər təbii yoluna düşməmiş Azərbaycan qızıl rus istilasına uğramışdır». Hətta Nəsib bəyin Türkiyə milli savaşına göstərdiyi maddi yardım onun faciəli ölümündən sonra Ankaraya yetişmişdi: “Mərhum Yusif bəyin [Nəsib bəyin – F.Ə.] əmri ilə Məmməd Əli Əhmədzadə tərəfindən 1920-ci il oktyabrın 2-də Ankaraya təhvil verilən 19 min Osmanlı lirəsi və 1 milyon fransız frankı və 8 neft vekselinin o zamankı xarici işlər naziri Əhməd Muxtar bəyin imzası ilə təsdiq edilmiş qəbzi əlimizdədir». Son dərəcə sərt şərtlər daxilində Nəsib bəyin Türkiyə milli savaşına yardım göstərməsinə baxmayaraq onun istiqlalçılıq amalı seçim müzakirə etməyəcək qədər yüksəkdə dayanırdı. Mətbuata müsahibəsində deyirdi ki, «hökumətin siyasi proqramının əsasında dövlət müstəqilliyi və istiqlaliyyəti dayanır».

Türkiyədə milli-azadlıq mücadiləsi liderlərinin ittifaq qurduğu Sovet Rusiyasının XI ordusunun Bakıya, Azərbaycana daxil olmasını tə-



min etmək yolunda Nəsib bəy hökuməti maneəyə çevrilmişdi. Bu prosesin məşhur fiqurlarından olan Xəlil paşanın dostlarından Tələt bəy Türkiyədə mühakimə olunarkən etiraf etmişdi: «Xəlil paşa və yoldaşları da Azərbaycan müxalifət firqələrinə «siz doğrudan-doğruya "Müsavat"dan kənar firqələrlə birləşmək surətilə Nəsib bəy hökumətini devirə bilərsiniz» deyə tövsiyədə bulunmuşlar». Nəsib bəyin Türkiyə milli-azadlıq hərəkatına yardım göstərməyə səy etdiyi halda «iş-işdən keçmiş və kommunist oyunu cəsarətlə oynanmışdır». Həmin dövrdə Azərbaycan «dağılan Osmanlı ordusunun zabit, əsgər və vətəndaşlarından ibarət bir qisminin sığındığı ölkə idi… hətta hökumət zabitlərin bir qisminə (orduya alınmadan) əmək haqqı verirdi». 1912-1913-cü illərdə İstanbulda yaranan «Türk ocağı»nın ilk nümayəndələri kimi Nəsib bəylə bu ocaqda dostlaşmış Fuat Sabit İstanbuldan Bakıya gəldiyi zaman Nəsib bəy baş nazir idi. Anadoluya kömək istəmək üçün vəkil edilmiş doktor Fuat Sabit «bu mövzuda Azərbaycanın baş naziri Nəsib bəy Yusifbəyli ilə görüşür» və nəticəni Rauf bəyə bildirir. Həmin məlumatda deyilirdi: «Baş nazir Nəsib bəy Rauf bəyin Azərbaycana gəlməsinin münasib olduğunu söylədi. Nə qədər silah, hərbi sursat lazım olduğunu və hansı vasitələrlə göndərildiyini soruşur». Lakin Azərbaycan hökumətinin mövqeyi haqqında yalan xəbərlərin göndərilməsi nəticəsində yanlış rəy formalaşdırılır.

Azərbaycan Cümhuriyyəti sovet Rusiyası ordusunun hərbi müdaxiləsi nəticəsində süqut etdiyindən sonra yaradılan Azərbaycan sovet hökuməti Türkiyənin azadlıq mücadiləsinə maddi, mənəvi, siyasi dəstək göstərmişdir. Sovet hakimiyyəti üçün türk xalqının mübarizəsi Antantaya qarşı müqəddəs müharibə sayılırdı.



Azərbaycanda "Türkiyə milli-azadlıq hərəkatına yardım fondu" təşkil edilmişdi. Azərbaycan sovet hökumətinin Türkiyə milli-azadlıq savaşına neft və neft məhsulları ilə yardım göstərməsinə dair çox sayda sənəd vardır. Türkiyə-Rusiya diplomatiyasının icra marşrutu Bakıdan keçirdi və bu siyasi əməkdaşlığın nizama salınmasına Nərimanov Azərbaycana aid olmayan məsələlərdə belə yardım edirdi: Nərimanov G.Çiçerinə yazaraq TBMM-nin Əfqanıstana göndərdiyi diplomatik nümayəndəyə kömək göstərməyi xahiş etmişdi. Təsadüfi deyil ki, XİXK-nın RSFSR VIII sovetlər qurultayına hesabatında deyilirdi: "Kamalçılar bizimlə münasibətlərə Azərbaycan vasitəsilə başlamışlar". Hər dəfə Moskvaya yola düşən türk nümayəndələri mütləq Nərimanovla, Hüseynovla görüşürdülər. Onların məramı yalnız imperialist əsarətinə qarşı çıxmaq idi. Bu cəhəti Şərq hərəkatının başlanğıcı üçün Nərimanov kafi hesab edirdi: "Kamal paşanın məqsədi bizə məlumdur. Onun hökuməti müstəqil xalq hökumətidir. O, İngiltərəyə müharibə elan etmişdir və buna görə də bizim dostumuzdur. Bununla belə, Şərq xalqları qurultayında qeyd edildi ki, Türkiyədə ümummilli inqilabi hərəkatın uğuru hələ türk kəndli və fəhlələrinin istismardan xilası demək deyildir. Yeri gəlmişkən, türk nümayəndə heyətinə başçılıq edən İbrahim bəy TBMM-nin vəkaləti üzrə qurultayda müşahidəçi kimi iştirak edirdi. Eyni zamanda, Bakıda Mustafa Sübhinin başçılıq etdiyi Türkiyə Kommunist Partiyası Mərkəzi Bürosu yerləşirdi. XI ordunun nəzdində türk hərbi əsirlərindən xüsusi Qırmızı polk yaradılmışdı ki, Türkiyəyə göndərilsin, milli-azadlıq hərəkatında iştirak etsin.

Türklərin hərbi uğurları müsəlmanlar içərisində canlanma yaratmışdı. Nərimanov kamalçıların seçə biləcəyi iki yolun aqibətini təhlil edib, belə nəticələndirmişdi: "Əgər kamalçılar Antantanın yeritdiyi mənfur Şərq siyasətini nəhayət, başa düşüb, onun əleyhinə silaha sarılıbdırlarsa, onda onların Antanta ilə, bizim əleyhimizə yaxınlaşmağını güman etmirik. Əgər kamalçılar indiyədək özlərini daşnaklar tərəfindən zərərsizləşdirmək məqsədilə mübarizə aparırdılar ki, Antantanın əliylə Konstantinopolu və əlavə olaraq bir neçə yunan vilayətini geri alsınlar, onda

onların Antanta ilə yaxınlaşmağını və bizim əleyhimizə fəal çıxışları mümkün hesab edirik".

Türkiyə-Rusiya münasibətlərini həm Azərbaycan, həm də Türkiyə üçün sərfəli məcraya yönəltməyə çalışan N.Nərimanov «erməni məsələsi»ndə Rusiyanı ehtiyatlı mövqe tutmağa çağırırdı: "Onlar üçün ən prinsipial məsələ erməni məsələsidir. Həmin məsələni özlərinin xeyrinə həll etmək üçün maksimum cəhd göstərdilər… Moskva erməni məsələsinə görə türkləri özündən uzaqlaşdırsa, onlar məyus olub, İngiltərəyə üz tuta bilərlər… Mən qəti deyirəm – Qafqazda (Dağıstanda və Gürcüstanda) yaranmış indiki vəziyyətdə Azərbaycanı əlimizdə saxlamaq istəyiriksə, biz nəyin bahasına olursa-olsun türklərlə möhkəm ittifaq bağlamalıyıq". Qeyd etmək lazımdır ki, Nərimanov Qars müqaviləsinin hər bir Qafqaz respublikası tərəfindən ayrıca təsdiq olunmasında təkid edən Türkiyə diplomatiyasının son ümid yeri olmuşdur. Türkiyənin xarici işlər naziri Yusif Kamal N.Nərimanovdan xahiş edirdi ki, öz nüfuzundan istifadə edərək Qars müqaviləsinin respublikalar tərəfindən və ittifaq orqanlarında ratifikasiyasını təmin etsin. Moskvanın göstərişinə görə isə hər hansı separat müqavilədən söhbət belə gedə bilməzdi: "Azərbaycan hökuməti digər Qafqaz respublikaları ilə danışmadan türklərlə müqavilə imzalamağa qəti yanaşmasın" (G.V.Çiçerin). Əsasən erməni mənşəli bolşevik rəhbərlərinin rol oynadığı bu proses Türkiyənin diqqət mərkəzində olmuşdur. 1921-ci ilin fevralında Türkiyənin xarici işlər naziri Əhməd Muxtar bəy Türkiyə Böyük Millət Məclisində demişdi: «İngilislərlə bolşeviklər, Azərbaycan türk aləmi ilə bizim aramıza Ermənistan tikmək istəyirlər.

… Təkrar ərz edirəm: Bütün dünyanın ittihaz etdiyi bir qərar var, o da bizimlə Azərbaycan arasında, Azərbaycanla türk aləmi arasında bir Ermənistan meydana gətirmək istəyirlər… Bakalım kim qələbə çalacaqdır, Karaxanın sürüklədiyi sovetlər, yoxsa biz».

1921-ci il martın 16-da Moskvada Türkiyə ilə dostluq müqaviləsi imzalandıqdan sonra Bakıda olan nümayəndələrlə Nərimanov Türkiyənin mövqeyini müzakirə etmiş və onların fikrini öyrənmişdi: "Siz elə fikirləşməyin ki, yalnız Siz dünya miqyasındakı siyasəti və Rusiyadakı ümumi vəziyyəti başa düşürsünüz, biz də hərbçiyik və siyasətçiyik, biz də başa düşürük və bəyan edirik: ...Biz çalışırıq ki, Rusiyadakı sovet hakimiyyətini saxlayaq və onun köməyi ilə Avropa imperializmini yıxaq, ona görə ki, öz müqəddəratımızı təyin etməyə yolumuz açıq olsun". Türkiyənin ehtiyatlı mövqeyi və tərəddüdünün səbəbi Nərimanova bəlli idi: " Bolşevik imperializması türkləri çaşdırırsa, o da onların səhvləridir. Bolşevik imperializması Avropanın inqilabı üçündür. Avropada biz istədiyimiz inqilab meydana gələrsə, bolşevik imperializması özü-özündən yox olacaqdır. Bu cür nazik mətləbdən bunu düşünmək gərəkdir". Və məhz "nazik mətləbdən" çıxış edərək türk nümayəndə heyətinin üzvü doktor Rza Nura "Bolşeviklik nə olan şeydir? Bu rəzalət bizə yaraşmaz. Biz türkük, milliyyət hissi ilə yaşayırıq" deyərək siyasi etimad üçün psixoloji zəmin yaratmaq istəmiş və buna qismən nail olmuşdu: "Çox xoşuma gəldi".

Kamalçıların uzaq görən və ağıllı olduqlarına inanan Nərimanovun " Hərgah Türkiyə doğrudan da xüsusi mənfəəti üçün yox, ümumi mənfəət üçün Şərqin xilasını istəyirsə gərəkdir Rusiyaya yavuqlaşsın. Biz ancaq Rusiya şüarıyla Şərqi xilas edə biləcəyik... Tək öz mənfəəti üçün bütün Şərqi qurban edərsə, özü də qurban olub bitəcəkdir" - ehtiyatını Atatürkün 1922-ci ildə dediyi "Türkiyənin bu günkü mübarizəsi, yalnız öz adına və hesabına olsaydı, bəlkə daha qısa, daha az qanlı olardı və daha sürətlə qurtara bilərdi. Türkiyə böyük və mühüm bir əzmkarlıq göstərir, çünki müdafiə etdiyi, bütün məzlum millətlərin, bütün Şərqin problemidir və bunu sona çatdırmayınca, Türkiyə özü ilə həmdərd olan Şərq millətləri ilə çiyin-çiyinə gedəcəyinə əmindir" fikir zahirən əsassız və təzadlı göstərsə də, mahiyyətcə onu qismən təsdiqləmiş olur.

Azərbaycan hökuməti həbs edilmiş ingilisləri İstanbulda həbs olunmuş kamalçılara dəyişmək qərarında idi. Bu barədə M.-D. Hüseynovun G.Çiçerinə yolladığı teleqram, danışıqlar aparmaq üçün həmin vaxt Kopenhagendə olan M.Litvinova göndərilmişdi. İngiltərə hökuməti Azərbaycan ilə müharibə vəziyyətində, kamalçıların isə Azərbaycan vətəndaşları olmadığına istinadən qoyulan şərti məqbul saymırdı. ASSR ilə Britaniya arasında hərbi əsirlərin dəyişdirilməsi haqqında məsələ üzrə danışıqlara əlavə olaraq ASSR-in Gürcüstanda diplomatik nüma-

yəndəsi polkovnik Stoksun nəzərinə çatdırmışdır: "Britaniya hərbi əsirlərinin Azərbaycanın hüdudlarından çıxıb getmə hüququnun verilməsi Sizin hökumətinizin türk-kamalçılar haqqında məsələni bizim üçün müsbət mənada həll etməsindən asılı olacaqdır". Əslində isə, Azərbaycan "oyundan kənar" vəziyyətdə qalmışdı.

"Mustafa Kamal Paşanın Türkiyəsi bizim dostumuzdur" deyən Nərimanov 1921-ci ilin aprelində M.D. Hüseynovla birgə Mustafa Kamal Paşaya təbrik göndərmişdi. Türkiyənin müstəqilliyini məhv etməyə qalxmış Antanta ilə müqəddəs müharibə aparmaq üçün əlinə silah almış Türkiyə xalqını alqışlayan Nərimanov qəhrəmancasına apardığı savaşın ikinci ilində əldə etdiyi böyük qələbə münasibətilə təbrik etmişdir. "İnqilabi Türkiyə" ordusunun öz zəfər bayrağını ölkənin tarixi paytaxtı İstanbul üzərində qaldıracağı günün uzaqda olmadığına "Azərbaycan Sovet hökumətinin" əminliyi ifadə olunmuşdur. Azərbaycan hakimiyyətinin Türkiyə milli-azadlıq hərəkatına rəğbətli münasibəti və müvafiq tədbirləri diqqətsiz qalmamışdır. TBMM N.Nərimanova fəxri qılınc vermək üçün Azərbaycana xüsusi heyət göndərmək haqqında qərar qəbul etmişdi. 1921-ci ilin oktyabrında Ankarada Azərbaycanın rəsmi nümayəndəliyi fəaliyyətə başlamışdır. Mustafa Kamal Paşa ilə Azərbaycan SSR-in, sonra isə ZSFSR-in Türkiyədə fövqəladə və səlahiyyətli səfiri olmuş İbrahim Əbilov arasında dostluq münasibətləri var idi. Əbilov Azərbaycan hökuməti adından dostluq və qardaşlıq rəmzi olaraq Atatürkə qızıl xəncər hədiyə vermiş, Atatürk Ankarada Azərbaycan səfirliyinin binası üzərində ölkəmizin bayrağının qaldırılması mərasimində iştirak etmişdir. Azərbaycan hökumətinin sədri Nərimanov 1922-ci ildə Genuya konfransına gedərkən dəvət olunmayan türklərin "ədalətli tələblərini qızğın müdafiə" etmişdi. Qarşılıqlı dəstək məzmunlu münasibətlərin 100 il əvvəl olduğu kimi günümüzdə də davam etdiyini tarix bir daha nümayiş etdirir.

Azərbaycan dövlət müstəqilliyini bərpa edəndə onu rəsmən ilk tanıyan və dəstəkləyən Türkiyə Cümhuriyyəti oldu. Otuz il müstəqil var olan Azərbaycan Respublikası ilə Türkiyə arasında əlaqələr siyasi, iqtisadi, mədəni, hərbi, ən əsası isə mənəvi baxımdan daha sıx məzmun və mahiyyətə malikdir. 1918-ci ildə Bakının qurtuluşu münasibətilə Azərbaycan və Osmanlı hərbçilərinin birgə Zəfər keçidindən 100 il sonra həmin parad rəmzi olaraq təkrarlandı, 2020-ci il dekabrın 10-da isə İkinci Qarabağ müharibəsində Azərbaycanın qələbəsi şərəfinə Bakıda keçirilən hərbi paradda Türkiyə prezidenti fəxri qonaq qismində geniş heyətlə iştirak etmişdir. Türkiyə əsgər və zabitlərinin də iştirak etdiyi bu Zəfər paradı və müştərək mövqe baxımından 100 illik Azərbaycan-Türkiyə əlaqələrini "Zəfərdən-Zəfərə doğru" kimi səciyyələndirmək olar.

**Ədəbiyyat:**


1. Azərbaycan Cümhuriyyəti. Sənədlər və materiallar, 1918-1920-ci illər, Bakı, "Elm", 1998
2. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi
3. Əhməd Cəfəroğlu. Seçilmiş əsərləri. Bakı, 2008
4. Əhmədova F. Nəriman Nərimanov – ideal və gerçəklik, Bakı,1998
5. Həsənov H.Ə. Nəriman Nərimanov – milli təmayüllü kommunist, B, 2004
6. Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı, Bakı, "Nicat", 1992
7. Utkan Qocatürk. Atatürk. Bakı, 1991
8. Багиров Ю.А. Из истории советско-турецких отношений (1920-1922 г.). 1965
9. Нариманов Н. Избранные произведения. Баку, 1989, т.2